Fatemeh Abdi

## Buluddan

Yağışlı bir gecə yorğun gözlərim
Baxışın asmışdı qara bulud dan
Elə göyneyirdi bağrımın başı
Sanırdım yağırdı yara buluddan

Salmışdı başına qara bir leçək
Səssiz ağlayırdı oda mənim tək
Yağırdi yerlərə derd ətək ətək
Qorxurdu o gece sara buluddan

Sanki yağa yağa yasa gəlirdi
Damcılar toprağın bağrın dəlirdi
Bəlkə ay ölmüşdü tək o bilirdi
Dilim də qorxurdu sora buluddan

O gece yatmirdı şıltaq ürəyim
Dərdinən dolmuşdu elim, etegim
Islanan xatirəm, yanan diləgim
*Könül*ü çəkmişdi dara buluddan